# Həftəlik

## *Bülleten*



**103**

**8 Avqust 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**KOBİA-da sahibkarların biznes fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) vətəndaşların növbəti qəbulu keçirilib.
KOBİA-dan bildirilib ki, qəbul zamanı agentliyin sədri tərəfindən müxtəlif sektorlarda fəaliyyət göstərən sahibkarların müraciətləri dinlənilib, bəzi məsələlərlə bağlı yerində izahat verilib.
Vətəndaşların araşdırma tələb edən müraciətləri isə qeydə alınaraq, müvafiq qurumlarla birgə araşdırılması üçün agentliyin aidiyyəti şöbələrinin icraatına yönləndirilib.
Araşdırmanın nəticələri barədə vətəndaşlara məlumat veriləcəyi qeyd olunub. Eyni zamanda, vətəndaşların biznes fəaliyyətinin qurulması və inkişaf etdirilməsinə dair təklifləri dinlənilib, layihələrin reallaşdırılması üçün dövlət dəstəyi alətlərinə və KOBİA-nın mandatı çərçivəsində göstərə biləcəyi dəstəyə dair fikir mübadiləsi aparılıb.



## Azərbaycan investorları Qazaxıstanda turizm obyekti tikməyi planlaşdırır

Qazaxıstanın Abay vilayətinin başçısı Berik Uali bu ölkənin Azərbaycandakı səfiri Alim Bayel ilə görüşüb. Abay vilayəti administrasiyasının mətbuat xidmətinə istinadla xəbər verir ki, görüşdə Azərbaycan-Qazaxıstan İşgüzar Şurası sədrinin müavini, Türk Sahibkarları Assosiasiyası İdarə Heyətinin sədri Aslan Kuniyarov, həmçinin Azərbaycan İnvestisiya Holdinqi və Azərbaycan Sahibkarlığın İnkişafı Fondunun nümayəndələri iştirak ediblər. Azərbaycan nümayəndə heyəti Alakol sahilində beynəlxalq müalicə-sağlamlıq kompleksinin tikintisi üzrə investisiya layihəsi barədə məlumat verib.

İnvestorlar eyni vaxtda 800 nəfəri qəbul etmək üçün nəzərdə tutulmuş bütün mövsümlər üzrə turizm obyekti tikməyi planlaşdırırlar. İnvestisiyanın həcmi 20 milyon dollardır. Kompleksin istifadəyə verilməsi ilə 200-ə yaxın yeni iş yeri açılacaq. Bundan əlavə, layihə regionun turizm cəlbediciliyini artıracaq, yerli büdcəyə vergi daxilolmalarını çoxaldacaq, habelə tibb və istirahətin kəsişməsində yeni klaster formalaşdıracaq. bilər”.



**Mərkəzi Parkın genişləndirilməsində məqsəd şəhər sakinləri üçün ekoloji cəhətdən təmiz və rahat ictimai məkan formalaşdırmaqdır**

Bakı şəhərində tarixi və mədəni irsin qorunması, mənzil fondunun və infrastrukturun yenilənməsi, ictimai məkanların və yaşıllıq sahələrinin yaradılması, həmçinin ekoloji dayanıqlığın təmin olunması 2040-cı ilə qədər nəzərdə tutulmuş Baş planın əsas inkişaf hədəflərindəndir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat katibi Ramiz Həsənov deyib.

Onun sözlərinə görə, bu məqsədlə Mərkəzi Parkın genişləndirilməsi layihəsinə start verilir: "Bildiyiniz kimi, indiyədək parkın 36 hektarlıq ərazisi ictimaiyyətin istifadəsinə verilib. Növbəti mərhələdə isə əlavə olaraq təxminən 21 hektar ərazinin yenidən qurulması və layihələndirilməsi nəzərdə tutulur".

Mətbuat katibi bildirib ki, ərazinin iqlim şəraiti, florası və ekoloji xüsusiyyətləri nəzərə alınmaqla burada geniş yaşıllıq zolaqları, süni göl, idman və mədəni tədbir zonaları, uşaqlar üçün oyun meydançaları, həmçinin qapalı avtomobil dayanacağı yaradılacaq.



## Zəfər Parkı və Port Baku yaxınlığında yeni lüks “Avenue 8” layihəsinə start verildi

Bakı buxtasına panoramik mənzərəsi olan, Port Baku Walk və Zəfər Parkı ilə əhatələnmiş “Avenue 8” təkcə yaşayış məkanı deyil, paytaxtın yeni urban simvolu kimi mövqeyini gücləndirməyə iddialıdır.
Layihə **Avant Group və Moonwake Investment** tərəfindən həyata keçirilir. PAŞA Bank isə layihənin rəsmi maliyyə tərəfdaşıdır.
2010-cu ildən fəaliyyət göstərən və bu günə qədər 1.1 milyon m²-dən artıq tikinti portfelinə sahib olan Avant Group, son illərdə Gürcüstan və Özbəkistan bazarlarında da fəallığını artırır.
**“Avenue 8-in mənzilləri 4.5 metrlik tavan hündürlüyünə malik olacaq, tam şüşəli fasadlar, zərif dizaynlı lobbilər və co-working zonaları müasir şəhər həyatına yeni standartlar gətirəcək. Binanın 30-cu mərtəbəsində Sky Lounge və Rooftop Pool zonaları, 25 metrlik qapalı hovuz, eləcə də spa, fitness və padel kortları rezidentlərə tam fərqli bir həyat tərzi vəd edir.”**



## Azərbaycanın sənaye zonaları üzrə məhsul ixracı 22 faizdən çox artıb

2015-ci ildən 2025-ci ilin 1-ci yarıısı da daxil olmaqla sənaye zonalarında 17,2 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 5,53 milyard manatlıq hissəsi ixrac edilib.
Marja.az İqtisadi Zoanalrın İnkişafı Agentliyinə istinadən xəbər verir ki, 2025-ci ilin ilin birinci yarısında sənaye zonalarında 1,83 milyard manatlıq satış həyata keçirilib ki, bunun da 583,5 milyonluq hissəsi ixracın payına düşür.
Sənaye zonaları üzrə məhsul satışı 2024-cü ilin eyni dövrünə nisbətən 28,7%, ixracı 22,4% artıb.
Sənaye zonalarında istehsal edilən polimerlər, karbamid, polad və polietilen borular, tütün məmulatları, divar kağızları, müxtəlif təyinatlı ayaqqabılar, sürtkü yağları, ferroərintilər, müxtəlif növdə kabellər, şüşə lövhələr, tikinti kimyəviləri, ipliklər, elektrod və s. məhsullar ABŞ, Kanada, Çin, Hindistan, İngiltərə, Almaniya, BƏƏ, Yunanıstan, İsrail, Avstriya, Norveç, Çexiya, İspaniya, Belçika və s. ölkələr daxil olmaqla ümumilikdə dünyanın 70-dən artıq ölkəsinə "Made In Azerbaijan" brendi adı altında ixrac olunub.



**Hörmətli sahibkarlar!**

14-16 oktyabr tarixlərində Baku Expo Mərkəzində keçiriləcək, ATMİA-nın tərəfdaş oduğu beynəlxalq status daşıyan sayca 30-cu BakuBuild 2025 sərgisində stend ilə iştirak etmək istəyən üzvlərimizin müraciətləri cari ilin 13 avqust tarixinə kimi qəbul edilir.

Əlaqə üçün: 010 250 03 24

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: SHANGHAI INTELLIGENT BUILDING TECHNOLOGY. 2025**
**Tarixlər: 13-15 avqust 2025-ci il,**
**Məkan: Şanxay Yeni Beynəlxalq Sərgi Mərkəzi – SNIEC, Şanxay (Çin)**
Çində Ağıllı Tikinti Texnologiyaları sərgisi. SIBT Bina avtomatlaşdırılması, Ümumi kabel və məlumat mərkəzi.

**Sərginin adı: SUPERBUILD EXPO 2025**
**Tarixlər: 2025-ci ilin avqustunda,**
**Məkan: Cakarta Beynəlxalq Sərgisi (JIExpo), Cakarta (İndoneziya)**
İndoneziyanın tikilmiş ətraf mühit üçün ən böyük ticarət sərgisi, 3 gün davam edən əsas sənaye tədbiri sənaye peşəkarlarına tikinti materialı, texnologiya və tikinti layihələrinin hər mərhələsi üçün məhsullar əldə etməyə imkan verən 12 ixtisaslaşmış tədbirlə yanaşı keçirilir.

**Sərginin adı: The International Exhibition For Construction & Building Materials**
**Tarixlər: 6-8 sentyabr 2025-ci il,**
**Məkan:** Egypt International Expo center EIEC Cairo, Egypt
Tikinti və İnşaat, Tikinti materialları

**Sərginin adı: BİG 5 GLOBAL**
**Tarixlər: 24-27 oktyabr 2025**
**Məkan: Dubay**
Beynəlxalq Tikinti və İnşaat və İnşaat Materialları Sərgisi.

**"Baki Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti Tender Elan Edir.**

"Baki Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti Tender Elan Edir.
Elanda "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətin inzibati binasının mərmər döşəməsinin kristallaşması və təmiri xidmətlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Emin Rüstəmov, Satınalma mütəxəssisi
Email: erustamov@bakucc.az
Əlaqə telefonu: +994 50 273 99 58



**Tovuz Rayon İcra Hakimiyyəti tərəfindən 2 ədəd açıq tender elan olunub.**

Tovuz Rayon İcra Hakimiyyəti tərəfindən 2 ədəd açıq tender elan olunub.
Birinci elanda büdcədənkənar vəsait hesabına Tovuz rayonunda abadlıq işlərinin görülməsini nəzərdə tutulur. İkinci elanda Tovuz rayonunda mənzil fondunun əsaslı təmir işlərini əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Alı İbrahimov, Şöbə müdirnin müavini
Email : maliye.ali@mail.ru
Əlaqə telefonnu: +994 55 804 25 35



**Abşeron Rayon İcra Hakimiyyəti Başçisinin Xirdalan Şəhəri Üzrə Nümayəndəliyi Tender Keçirir.**

Abşeron Rayon İcra Hakimiyyəti Başçisinin Xirdalan Şəhəri Üzrə Nümayəndəliyi Tender Keçirir.
Elanda Xırdalan şəhərində mənzil fondunun təmiri işlərinin satın alınması, Bbinalara cari və əsaslı təmir işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Mübariz Əliyev, Məsləhətçi mühəndis
Email: ceyhunrasulov@mail.ru
Əlaqə telefonu: +994 12 342 63 94



**Azərbaycan Respublikasi Şirvan Şəhər İcra Hakimiyyəti Başçisinin 1 Nömrəli Sahə İnzibati Ərazi Dairəsi Üzrə Nümayəndəliyi Tender Elan Edir.**

Azərbaycan Respublikasi Şirvan Şəhər İcra Hakimiyyəti Başçisinin 1 Nömrəli Sahə İnzibati Ərazi Dairəsi Üzrə Nümayəndəliyi açıq tender elan edir.
Elanda Şirvan şəhərində Abadlıq işlərinin satınalınması, obyektlərin cari və əsaslı təmir işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əskərov Mirəli, Baş məsləhətçi baş mühasib
Email: eskerov_mirali@mail.ru
Əlaqə telefonu: +994 21 215 32 88



**"Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" Publik Hüquqi Şəxsi Tender Elan Edir.**

"Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" Publik Hüquqi Şəxsi Tender Elan Edir.
Elanda layihə çərçivəsində Ağalı və Məmmədbəyli kəndlərinin su təchizatı və tullantı su şəbəkə və qurğularının tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Yusif Hüseynov,
Planlama və Satınalmaların Təşkili şöbəsi baş məsləhətçi-şöbə müdirinin müavini
Email: yusif.huseynov@toom.gov.az
Əlaqə telefonu: +994 55 225 12 31



**"İri Şəhərlərin Birləşmiş Su Təchizati Xidməti" Publik Hüquqi Şəxsi Tender Keçirir.**

"İri Şəhərlərin Birləşmiş Su Təchizati Xidməti" Publik Hüquqi Şəxsi Tender Keçirir.
Elanda havalandırma sisteminin təmiri üçün lazım olan mal-materialların alınması və quraşdırılmasının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elşən İsmayılzadə, Böyük məsləhətçi
Email: elshan.ismayilzada@isst.az
Əlaqə telefonu: +994 50 289 41 07



